*Elmi Tədqiqat*
May 2026, Cild: 6, Sayı: 5, s. 122–126
*Scientific Research*
May 2026, Volume: 6, Issue: 5, pp. 122–126
DOI: https://doi.org/10.36719/2789-6919/58/122-126

# Rusiya-Ukrayna müharibəsində ziddiyyətlərin başlıca səbəbləri

**Çingiz Məmmədzadə**

***Xülasə.*** *Bu məqalədə Rusiya-Ukrayna müharibəsi çərçivəsində ziddiyyətlərin başlıca səbəbləri sistemli və çoxşaxəli şəkildə təhlil edilir. Tədqiqatın əsas məqsədi münaqişənin yaranmasına və dərinləşməsinə təsir göstərən siyasi, iqtisadi, hərbi və ideoloji amilləri müəyyənləşdirməkdir. Məqalədə Sovet İttifaqının dağılmasından sonra yaranmış geosiyasi boşluq, regionda güc balansının dəyişməsi və Rusiyanın öz təsir dairəsini qorumaq siyasəti xüsusi vurğulanır. Bununla yanaşı, Ukraynanın Avropa və Qərb institutlarına inteqrasiya cəhdləri, xüsusilə NATO ilə əməkdaşlığının genişlənməsi Rusiyanın təhlükəsizlik konsepsiyasında ciddi narahatlıq doğurmuşdur. Enerji təhlükəsizliyi və tranzit marşrutları uğrunda mübarizə də tərəflər arasında iqtisadi rəqabəti gücləndirmişdir. Eyni zamanda, milli identiklik, dil və mədəniyyət məsələləri Ukrayna daxilində siyasi parçalanmanı dərinləşdirmişdir. Tədqiqat göstərir ki, bu münaqişə yalnız regional deyil, həm də qlobal güclərin maraqlarının toqquşduğu kompleks bir prosesdir.*
*Müasir beynəlxalq münasibətlər sistemində regional münaqişələr qlobal təhlükəsizlik arxitekturasına ciddi təsir göstərir. Bu baxımdan Rusiya-Ukrayna müharibəsi yalnız iki dövlət arasında qarşıdurma deyil, həm də beynəlxalq sistemin transformasiyasının göstəricisidir. Münaqişənin kökləri tarix, siyasət və iqtisadiyyatın kəsişməsində formalaşmışdır. Məqalədə həmçinin münaqişənin beynəlxalq təhlükəsizlik sisteminə təsiri və uzunmüddətli nəticələri də qiymətləndirilir.*

***Açar sözlər:*** *Rusiya-Ukrayna müharibəsi, geosiyasət, NATO, enerji təhlükəsizliyi, milli identiklik, beynəlxalq münasibətlər, regional münaqişə*

---

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: chingiz.mamedzade.tarlan@gmail.com
Daxil oldu: 7 Fevral 2026; Qəbul edildi: 11 May 2026; Onlayn dərc edildi: 30 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Main Causes of Contradictions in the Russia-Ukraine war

**Chingiz Mammadzadeh**

***Abstract.*** *This article provides a comprehensive and systematic analysis of the main causes of contradictions within the Russia-Ukraine War. The primary objective of the study is to identify and evaluate the political, economic, military, and ideological factors that have contributed to the emergence and escalation of the conflict. Particular attention is paid to the geopolitical vacuum that emerged after the collapse of the Soviet Union, the shifting balance of power in the region, and Russia's efforts to maintain its sphere of influence.*

*At the same time, Ukraine's aspirations toward European integration and its increasing cooperation with NATO have intensified Russia's security concerns. Energy security and competition over transit routes have further deepened economic tensions between the parties. Additionally, issues of national identity, language, and cultural orientation have contributed to internal divisions within Ukrainian society. The study demonstrates that the conflict is not merely a regional dispute but a complex phenomenon involving the intersection of global power interests. In the modern system of international relations, regional conflicts have a significant impact on the global security architecture. In this regard, the Russia-Ukraine War is not merely a confrontation between two states, but also an indicator of the transformation of the international system. The roots of the conflict have been shaped at the intersection of history, politics, and economics.*
*Furthermore, the article evaluates the broader implications of the conflict for international security and considers its potential long-term consequences within the evolving global order.*

***Keywords:*** *Russia-Ukraine war, geopolitics, NATO, energy security, national identity, international relations, regional conflict*

---

Baku Slavic University, Master's student, Baku, Azerbaijan
E-mail: chingiz.mamedzade.tarlan@gmail.com
Received: 7 February 2026; Accepted: 11 May 2026; Published online: 30 May 2026
© Author(s) 2026. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Müasir beynəlxalq münasibətlər sistemində regional münaqişələr qlobal təhlükəsizlik arxitekturasına ciddi təsir göstərir. Bu baxımdan, Rusiya-Ukrayna müharibəsi yalnız iki dövlət arasında bir qarşıdurma deyil, həm də beynəlxalq sistemin transformasiyasının göstəricisidir. Sovet İttifaqının dağılmasından sonra Qərbin və Rusiyanın beynəlxalq aləmdəki rəqabəti yeni münaqişələrə yol açmışdır. Ukrayna, həm Rusiya, həm də Qərb üçün geosiyasi baxımdan strateji əhəmiyyət kəsb edir. Bu məqalədə, münaqişənin əsas səbəbləri, xüsusilə daxili və xarici amillər təhlil edilmişdir. Rusiya–Ukrayna münaqişəsi bu gün də həll olunmadığı üçün aktual beynəlxalq problemlər sırasında qalmaqdadır. Ukrayna işğal edilmiş ərazilərin geri qaytarılmasını tələb edir, Rusiya isə həmin bölgələrə geniş muxtariyyət verilməsini və federativ idarəetmə modelinin tətbiqini təklif edir. Eyni zamanda, Rusiyanın enerji resurslarını siyasi təzyiq vasitəsi kimi istifadə etməsi Qərb dövlətlərinin ona qarşı daha sərt addımlar atmasını müəyyən qədər məhdudlaşdırır.

## Tədqiqat

Rusiya–Ukrayna münaqişəsinin səbəblərini ümumiləşdirərkən demək olar ki, bu qarşıdurmanın yaranması və bugünkü səviyyəyə çatmasında həm daxili, həm də xarici amillər mühüm rol oynayıb. Daxili amillər baxımından Ukraynanın daxilində mövcud olan parçalanma meyilləri diqqət çəkir. Tarixən ölkə sağsahil və solsahil Ukraynası kimi iki hissəyə bölünüb və bu bölgələr arasında ciddi siyasi baxış fərqləri mövcuddur. Sağsahil əhalisi daha çox Rusiyaya meyilli olduğu halda, solsahil əhalisi Avropaya inteqrasiyanı dəstəkləyib. Həm Rusiya, həm də Qərb bu fərqlərdən öz maraqları naminə istifadə edib (Abbasbəyli, 2008).

Bununla yanaşı, əsas səbəblər daha çox xarici amillərlə bağlıdır. Rusiyanın tarixi ərazi iddiaları, Ukraynanı öz təsir dairəsi kimi görməsi və SSRİ dağıldıqdan sonra postsovet məkanında, o cümlədən Ukraynada nüfuzunu qorumağa çalışması mühüm rol oynayıb. Digər tərəfdən, Qərbin Rusiya ilə geosiyasi rəqabəti, SSRİ-nin süqutundan sonra da davam edən qarşıdurma və postsovet ölkələrində təsir uğrunda mübarizə də bu prosesə təsir göstərib (Əfəndiyev, 2010). İqtisadi amillər də

əhəmiyyətlidir: Avropanın Rusiya enerjisindən asılılığı, Rusiyanın enerji resurslarını siyasi alət kimi istifadə etməsi və Ukraynanın tranzit ölkə kimi strateji mövqeyi münaqişəni dərinləşdirən faktorlar sırasındadır.

Rusiya ilə Ukrayna arasında gərginliyin artması bir sıra mühüm siyasi və geosiyasi hadisələrlə bağlıdır ki, bunlar sonda müharibəyə gətirib çıxarıb. Xüsusilə 2014-cü ildə baş verən Maydan hadisələri Ukraynada ciddi siyasi və sosial dəyişikliklərə səbəb oldu və Viktor Yanukoviçin hakimiyyətdən uzaqlaşması ilə nəticələndi. Bu hadisələrin əsas nəticələrindən biri Ukraynanın Avropa Birliyinə yaxınlaşmaq istiqamətində addımlar atması və Qərblə münasibətlərini gücləndirməyə çalışması oldu.

*Daxili amillər.* Ukraynanın daxilində mövcud olan siyasi və mədəni parçalanma münaqişənin əsas səbəblərindən biri kimi çıxış edir. Tarixən ölkənin müxtəlif regionları fərqli geosiyasi orientasiyalara malik olmuşdur. Qərb və mərkəzi Ukrayna daha çox Avropa ilə inteqrasiyanı dəstəklədiyi halda, şərq və cənub bölgələrində Rusiya ilə yaxın münasibətlərə üstünlük verilmişdir (Kuzio, 2015; Baxşəliyev, 2021). Bu fərqliliklər ölkə daxilində siyasi qeyri-sabitliyə və identiklik böhranına səbəb olmuşdur.
2014-cü ildə baş verən Maydan hadisələri bu daxili ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxardı. Həmin hadisələr nəticəsində hakimiyyət dəyişikliyi baş verdi və Ukraynanın xarici siyasət kursu Qərbə yönəldi. Bu isə ölkə daxilində mövcud olan parçalanmanı daha da dərinləşdirdi (Wilson, 2014).
*Xarici amillər.* Münaqişənin əsas səbəbləri arasında xarici amillər xüsusi yer tutur. İlk növbədə, Rusiyanın postsovet məkanında təsirini qorumaq siyasəti qeyd olunmalıdır. Rusiya Ukraynanı öz təhlükəsizlik zonası və strateji maraq dairəsi kimi qiymətləndirir. Bu yanaşma realist beynəlxalq münasibətlər nəzəriyyəsi çərçivəsində böyük güclərin təhlükəsizlik maraqları ilə izah olunur (Mearsheimer, 2014; Həsənov, 2010).

Digər tərəfdən, Qərb dövlətlərinin, xüsusilə NATO və Avropa İttifaqının genişlənmə siyasəti Rusiyanın narahatlığına səbəb olmuşdur. Ukraynanın NATO-ya potensial üzvlüyü Rusiyanın milli təhlükəsizlik maraqları üçün təhdid kimi qəbul edilmişdir (Sakwa, 2015; Əhmədov, 2018). Bu kontekstdə münaqişə böyük güclər arasında geosiyasi rəqabətin nəticəsi kimi də qiymətləndirilə bilər.

*İqtisadi və enerji amilləri.* Enerji siyasəti də münaqişənin mühüm komponentlərindən biridir. Avropanın uzun müddət Rusiyadan enerji asılılığı və Ukraynanın əsas tranzit ölkə kimi rolu onun strateji əhəmiyyətini artırmışdır. Rusiya enerji resurslarından siyasi təsir vasitəsi kimi istifadə etmiş, Ukrayna isə bu sistemdə mühüm mövqeyə malik olmuşdur (Balmaceda, 2013; Qasımlı, 2011).

*Tarixi və identiklik faktorları.* Rusiya və Ukrayna arasında münasibətlərdə tarixi faktorlar da mühüm rol oynayır. Rusiya Ukraynanı tarixən "vahid mədəni-sivilizasiya məkanının" bir hissəsi kimi qiymətləndirir. Bu yanaşma Ukraynanın müstəqil milli identiklik quruculuğu ilə ziddiyyət təşkil edir və siyasi gərginliyi artırır (Plokhy, 2017).

## Nəticə

Müharibə beynəlxalq hüququn sınaqdan keçirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır. Xüsusilə dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsipləri bu münaqişə fonunda pozulmuşdur. Bununla belə, beynəlxalq ictimaiyyətin reaksiyası əsasən sanksiyalar və diplomatik təzyiqlərlə məhdudlaşmışdır. NATO və Avropa İttifaqı ölkələrinin Ukraynaya verdiyi dəstək və Rusiyaya qarşı tətbiq edilən sanksiyalar beynəlxalq güc münasibətlərində yeni mərhələnin başlanğıcını göstərmişdir, lakin eyni zamanda, geosiyasi vəziyyəti daha da mürəkkəbləşdirmişdir.

Krımın Rusiya tərəfindən ilhaqı və Ukraynanın şərqində yaradılmış Donetsk və Luqansk adlı qondarma qurumlar beynəlxalq səviyyədə tanınmasa da, Ukrayna bu ərazilər üzərində faktiki nəzarətə malik deyil və yalnız hüquqi baxımdan suverenliyini saxlayır. Bu vəziyyət dövlətlərin ərazi bütövlüyü prinsipinin açıq şəkildə pozulmasının nümunəsi kimi qiymətləndirilir və bu problemin həlli istiqamətində indiyədək ciddi nəticələr əldə olunmamışdır.

Müharibəyə Avropa və Cənubi Qafqaz ölkələrinin reaksiyası fərqli olmuşdur. Avropa dövlətləri Ukraynaya yalnız siyasi dəstək verməklə kifayətlənməyərək, həm də hərbi və humanitar yardım göstərmişdir. Ukraynanın NATO ilə əməkdaşlığının güclənməsi onun Avropa təhlükəsizliyində rolunu daha da artırmışdır. Cənubi Qafqaz ölkələri isə daha ehtiyatlı mövqe tutaraq, əsasən milli maraqlarını qorumağa çalışmışdır. Azərbaycan, Ermənistan və Gürcüstanın hər biri bu münaqişəyə fərqli yanaşma sərgiləmiş, xüsusilə enerji təhlükəsizliyi və regional hərbi balans məsələləri ön plana çıxmışdır.

Müharibə nəticəsində beynəlxalq təhlükəsizlik mühiti ciddi şəkildə dəyişmişdir. Yeni hərbi-siyasi ittifaqlar formalaşmış və silahlanma yarışının intensivləşməsi müşahidə olunmuşdur. Bu tendensiya xüsusilə Şərqi Avropa və Cənubi Qafqaz regionlarında daha qabarıq şəkildə özünü göstərir. Bundan əlavə, enerji siyasətində də mühüm dəyişikliklər baş vermişdir. Rusiya enerji resurslarının ixracında yaranan problemlər Qərb ölkələrini alternativ mənbələr axtarmağa yönəltmiş, nəticədə qlobal enerji bazarında yeni reallıqlar formalaşmışdır.

Rusiya və Ukraynanın hərbi və iqtisadi potensialları arasında ciddi fərqlər mövcuddur. Rusiya genişmiqyaslı hərbi əməliyyatlar aparmaq qabiliyyətinə malik güclü orduya sahibdir. Bununla belə, döyüşlərin gedişi göstərir ki, Ukrayna ərazisində uzunmüddətli müharibə şəraitində Rusiya ordusu müəyyən çətinliklərlə üzləşir. Bu səbəbdən Rusiya daha çox klassik döyüş strategiyalarına üstünlük verməyə çalışır, Ukrayna isə əsasən qeyri-ənənəvi, o cümlədən gerilla taktikasından istifadə edərək müqavimət göstərir. Müharibənin gələcək inkişaf istiqaməti isə hələ də qeyri-müəyyən olaraq qalır.
Müharibə ağır humanitar nəticələrə səbəb olmuşdur. Minlərlə insan həyatını itirmiş, milyonlarla ukraynalı qaçqın vəziyyətinə düşmüşdür. Bir çox şəhərlər ciddi dağıntılara məruz qalmışdır. Münaqişənin dayandırılması üçün aparılan danışıqlar hələlik konkret nəticə verməmişdir və mövcud vəziyyət hərbi əməliyyatların bir müddət daha davam edə biləcəyini göstərir. İki xalq arasında münasibətlərin normallaşması isə uzun zaman tələb edəcək və bu müharibənin izləri uzun müddət yadda qalacaqdır.

Münaqişə artıq yalnız iki dövlət arasında deyil, daha geniş regional və qlobal sistemin yenidən formalaşması prosesi kimi çıxış edir. Qərb ölkələrinin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar, enerji siyasətində dəyişikliklər və strateji müttəfiqliklərin gücləndirilməsi bu prosesin əsas elementlərindəndir. Ukraynanın NATO üzvlüyü məsələsi həm siyasi, həm də təhlükəsizlik baxımından əsas gündəm mövzusuna çevrilmişdir. Eyni zamanda, qlobal bazarlarda enerji və ərzaq qiymətlərində baş verən dəyişikliklər digər ölkələrin iqtisadiyyatına da təsir göstərmişdir. Humanitar böhran və qaçqın axını isə həm Avropada, həm də qonşu regionlarda sosial-iqtisadi problemləri dərinləşdirmişdir.

Nəticə etibarilə, Rusiya–Ukrayna müharibəsi müasir beynəlxalq sistemdə dönüş nöqtəsi kimi qiymətləndirilir. Bu münaqişə beynəlxalq hüquq və təhlükəsizlik mexanizmlərinin böyük güclərin maraqları qarşısında məhdud imkanlara malik olduğunu göstərmişdir. Müharibənin uzunmüddətli nəticələri qlobal nizamın daha qeyri-sabit və mürəkkəb xarakter alacağını göstərir. Bu baxımdan, həmin münaqişə yalnız bu gün üçün deyil, gələcək nəsillərin təhlükəsizlik mühitinə təsir edəcək mühüm tarixi hadisə kimi dəyərləndirilir.

**Ədəbiyyat**

1. Abbasbəyli, A. (2008). *Müasir dünyanın siyasi mənzərəsi*. Elm.
2. Baxşəliyev, T. (2021). *Rusiya tarixi ən qədim zamanlardan günümüzədək*. Təhsil.
3. Balmaceda, M. M. (2013). *The Politics of Energy Dependency: Ukraine, Belarus, and Lithuania between Domestic Oligarchs and Russian Pressure*. University of Toronto Press.
4. Əfəndiyev, M. (2010). *Siyasi elm*. Siyasət.
5. Əhmədov, A. (2018). *NATO və ümumavropa təhlükəsizlik sistemi*. Mütərcim.
6. Həsənov, Ə. (2010). *Geosiyasət*. Aypara.
7. Kuzio, T. (2015). *Ukraine: Democratization, Corruption, and the New Russian Imperialism*. Praeger.
8. Qasımlı, M. (2011). Avropanın sosialist ölkələrində və SSRİ-də baş verən hadisələrin geosiyasi nəticələri. *Geostrategiya jurnalı*, 44.
9. Mearsheimer, J. J. (2014). Why the Ukraine Crisis Is the West's Fault. *Foreign Affairs, 93*(5), 77–89.
10. Plokhy, S. (2017). *Lost Kingdom: The Quest for Empire and the Making of the Russian Nation*. Basic Books.
11. Sakwa, R. (2015). *Frontline Ukraine: Crisis in the Borderlands*. I.B. Tauris.
12. Wilson, A. (2014). *Ukraine Crisis: What It Means for the West*. Yale University Press.